Funded by the European Union

**Azərbaycanda məhkəmə sisteminin səmərəliliyinin və keyfiyyətinin artırılması**

**İcra müddəti:** 01.03.2019 - 28.02.2023

**ŞT ölkələri:**
Azerbaijan

**Aİ-nin maliyyə yardımı:** € 756 000

**Ümumi büdcə:** € 945 000

**İcraçı təşkilat(lar):**
Council of Europe



**Sosial media hesablarına keçidlər:**
facebook.com/partnershipgovernance,
https://twitter.com/CoeEapPCF

**Internet səhifəsi:** partnership-governance2-eu.coe.int

**Layihənin təsviri:**

Layihənin ümumi məqsədi Azərbaycanda məhkəmə sisteminin səmərəliliyinin və keyfiyyətinin artırılması və məhkəmə qərarlarının icrasının yaxşılaşdırılması yolu ilə məhkəməyə müraciət edənlərin ədalət mühakiməsinə nail olmaları üçün mövcud imkanların daha da yaxşılaşmasını təmin etməkdir.
Layihənin gözlənilən nəticələri aşağıdakılardır:
- CEPEJ-in alətlərinin dövlət səviyyəsində tətbiqi yolu ilə Azərbaycan məhkəmələrinin işinin səmərəliliyinin və keyfiyyətinin artırılması;
- Məhkəmə qərarlarının icrası sisteminin hüquqi və institusional cəhətdən müasirləşdirilməsi və icra prosedurlarında iştirak edən qurumların potensialının gücləndirilməsi vasitəsilə qərarların icrasının təkmilləşdirilməsi.

**Gözlənilən nəticələr:**

- CEPEJ-STAT məlumat bazasının konsepsiyası əsasında məhkəmə statistikasına ictimaiyyətin çıxış əldə etməsinə imkan verən alətlər barədə biliklərin və məlumatlılığın artırılması;
- Siyasətin müəyyənləşdirilməsi və idarəetmə məqsədləri üçün məhkəmə statistikasının toplanması və təhlili üzrə biliklərin və texniki bacarıqların artırılması;
- Səmərəliliyin və istifadəçi məmnunluğunun artırılması məqsədilə Azərbaycan məhkəmələri tərəfindən müasir idarəetmə metodlarının və alətlərinin tətbiq edilməsi;
- Məhkəmə qərarlarının icrasına dair qanunvericiliyin Avropa standartlarına uyğun olaraq təkmilləşdirilməsi məqsədilə ekspertlər tərəfindən tövsiyələrin verilməsi;
- Məhkəmə qərarlarının icrası prosedurlarına və bu sahədə işlərin idarə olunmasına dair Avropanın qabaqcıl təcrübələri barədə dövlət səviyyəsində maraqlı subyektlər arasında biliklərin və məlumatlılığın artırılması.